## “AZƏRBAYCAN RESPUBLİKASININ CİNAYƏT MƏCƏLLƏSİ”ndən

## Ç I X A R I Ş L A R

M a d d ə 1 9 6 . **Kreditor borclarını ödəməkdən qəsdən yayınma**

196.1. Məhkəmənin qanuni qüvvəyə minmiş müvafiq qərarına əsasən təşkilat rəhbərinin və ya vətəndaşın kreditor borclarını, yaxud qiymətli kağızları ödəməkdən qəsdən yayınması xeyli miqdarda ziyan vurduqda—

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə cinayət nəticəsində vurulmuş ziyanın *iki mislindən dörd mislinədək miqdarda* cərimə və ya bir ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

196.2. Eyni əməllər külli miqdarda ziyan vurduqda—

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə cinayət nəticəsində vurulmuş ziyanın *üç mislindən beş mislinədək miqdarda* cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

M a d d ə 2 0 2 . **Kommersiya və ya bank sirri olan məlumatları qanunsuz yolla əldə etmə və ya yayma**

202.1. Kommersiya və ya bank sirlərini təşkil edən məlumatların toplanması həmin məlumatları yaymaq və ya onlardan qanunsuz istifadə etmək məqsədi ilə sənədləri oğurlamaqla, satın almaqla və ya hədələməklə, habelə digər qanunsuz üsulla törədildikdə—

yüz manatdan beş yüz manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

202.2. Sahibkarın razılığı olmadan kommersiya və ya bank sirri olan məlumatların tamah və ya başqa şəxsi niyyətlə qanunsuz yolla istifadə edilməsi və ya yayılması külli miqdarda ziyan vurmaqla törədildikdə—

*cinayət nəticəsində vurulmuş ziyanın üç mislindən beş mislinədək* miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri ~~və ya~~ altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.